## Şəxsiyyət vəsiqəsini girov qoydu, gözləmədiyi problemlə üzləşdi…

Bakı sakini Xəyalə Axundova səhlənkarlığı üzündən özünün də xəbəri olmadan borclu vergi ödəyicisinə çevrilib

***Səhlənkarlığın acı nəticəsi***

Sahibkarlıq fəaliyyətindən tamamilə uzaq Xəyalə Axundovada çaşqınlıq, eyni zamanda narazılıq doğuran bu məsələnin əsl mahiyyəti onun vergi orqanlarına rəsmi müraciətindən sonra aşkarlanıb. Vətəndaşın 29 oktyabr və 13 noyabr 2012-ci il tarixli müraciətlərinin Vergilər Nazirliyində araşdırılması zamanı məlum olub ki, o, özünün də xəbəri olmadan fiziki şəxs kimi vergi orqanında qeydiyyatdan keçirilib. Belə bir qanun pozuntusunun baş verməsində isə şəxsi səhlənkarlığı «müstəsna rol oynayıb». Sən demə, X.Axundova 2012-ci ilin mart ayında Bakı şəhəri, H.Hacıyev küçəsində yerləşən lombarddan - qızıl-zinət əşyalarını və şəxsiyyət vəsiqəsini girov qoymaqla - 500 manat pul götürüb. Və elə sonradan vergi orqanına borcunun yaranması da məhz şəxsiyyət vəsiqəsinin girov qoyulması zəminində yaranıb.

***Lombard sahibinin özbaşınalığı***

Vətəndaş X.Axundova müraciətində göstərib ki, lombardın sahibi girov götürdüyü şəxsiyyət vəsiqəsindən qeyri-qanuni istifadə edərək Bakının Türkan qəsəbəsində yerləşən «Bizim Sahil» İstirahət Mərkəzini vergi orqanında onun adına uçota aldırıb. Məsələ ilə bağlı Vergilər Nazirliyinin Daxili təhlükəsizlik Baş İdarəsində aparılmış araşdırmalar zamanı məlum olub ki, 2012-ci il iyunun 11-də vətəndaş X.Axundovanın adından 5 saylı Ərazi Vergilər İdarəsinə elektron qaydada müraciət edilib və o, fiziki şəxs kimi vergi orqanında qeydə alınıb. İyunun 18-də isə yenə də X.Axundovanın adından edilmiş rəsmi müraciət əsasında həmin obyektdə nəzarət-kassa aparatı quraşdırılıb. Bu il sentyabr ayının 17-də isə yenə də onun adından vergi orqanına elektron qaydada rəsmi müraciət edilərək sahibkarlıq fəaliyyətinin dayandırıldığı bildirilib. 2012-ci ilin 2-ci rübü üzrə təqdim edilmiş hesabat əsasında ona 20 manat sadələşdirilmiş vergi hesablansa da, vergi hesabatının vaxtında təqdim edilməməsi səbəbindən 2012-ci il iyulun 30-da 40 manat maliyyə sanksiyası da tətbiq olunub. Vətəndaş X.Axundova nazirliyə ünvanladığı müraciətində ölkə hüdudlarını tərk etməsinə qoyulan qanuni məhdudiyyətin aradan qaldırılması üçün aparılan araşdırmaların yekununu gözləməyib və həmin vergi borcunu könüllü şəkildə ödədiyini qeyd edib.

Vətəndaş X.Axundovanın etibarnamə üzrə nümayəndəsi və anası Dilşad Fətullayeva araşdırmaya təqdim etdiyi 2012-ci il 1 noyabr tarixli izahatında hazırda qızının ölkə hüdudlarından kənarda olduğunu bildirərək, onun şikayət ərizəsində göstərdiklərini təsdiqləyib.

***Ziddiyyət yaradan izahatlar...***

Araşdırmalar zamanı vətəndaş X.Axundovanın şəxsiyyət vəsiqəsindən qanunsuz istifadə edərək işlətdiyi obyekti onun adına rəsmiləşdirən şəxsin (lombard sahibinin) Binyat Binyatov olduğunu müəyyənləşdirmək çətin olmayb. O, vergi orqanlarına 2012-ci il 7 noyabr tarixli izahatında vətəndaş X.Axundovanın həqiqətən də lombarda zinət əşyaları və şəxsiyyət vəsiqəsini girov qoymaqda 500 manat pul aldığını təsdiqləyib. Eyni zamanda, lombardda girov kimi qoyulmuş qızıl saatın saxta olduğunu müəyyənləşdirdiyini, bu səbəbdən də götürülən pul vəsaitinin geri qaytarılmasını tələb etdiyini göstərib. İzahatda qeyd olunub ki, bu tələbi hələlik yerinə yetirmək imkanında olmadığını deyən X.Axundova lombarddan girov müqabilində aldığı pulu yaxın günlərdə qaytaracağına vəd verib və inandırmaq məqsədilə şəxsiyyət vəsiqəsini Binyat Binyatova təqdim edib. Lakin dəfələrlə telefon əlaqəsinin saxlanılmasına baxmayaraq, bu vədin yerinə yetirilmədiyini iddia edən Binyat Binyatov işlətdiyi şəxsi obyektini X.Axundovanın adına vergi ödəyicisi kimi rəsmiləşdirilməsi üçün onun razılığını aldığını bildirib. O, telefonla əlaqə saxlayaraq icazəsini aldıqdan sonra X.Axundovanın şəxsiyyət vəsiqəsini vergi orqanında qeydiyyata düşmək üçün Natiq adlı vergi orqanı əməkdaşına verdiyini bildirib. B.Binyatov izahatında obyektin və orada quraşdırılmış nəzarət-kassa aparatının X.Axundovanın adına vergi orqanında qeydiyyata alındığını, sənədləşmə prosesində iştirak etmədiyini və vergidən yayınmaq məqsədinin olmadığını da göstərib.

B.Binyatov eləcə də «Bizim Sahil» istirahət mərkəzinin mövsümi xarakter daşıdığını, obyektin fəaliyyətdə olduğu müddət ərzində dövlət büdcəsinə ödənilməsi üçün özünü vergi işçisi kimi təqdim edən Mirhəbib adlı şəxsə hər ay 30-40 manat verdiyini, X.Axundovanın şikayət etməkdə

məqsədinin qoyduğu girovun ödənişsiz olaraq qaytarılması və ondan torpaq sahəsi almaq istədiyini də qeyd edib.

***Diqqətsizlik, yoxsa...***

Məsələ ilə bağlı «Bizim Sahil» İstirahət Mərkəzini vətəndaş X.Axundovanın adına vergi ödəyicisi kimi rəsmiləşdirmiş vergi orqanı əməkdaşlarının da izahatları alınıb. 5 saylı Ərazi Vergilər İdarəsinin Qeydiyyat və uçot şöbəsinin rəisi Fəxrəddin Rzayev 2 noyabr 2012-ci il tarixli izahatında göstərib ki, X.Axundovanın vergi orqanında fiziki şəxs kimi uçota götürülməsi barədə onun adından elektron qaydada «onlayn qeydiyyat» ərizəsinə baxılıb. Müraciət etmiş şəxsin ünvan məlumatlarının şəxsiyyət vəsiqəsindəki məlumatlarla uyğunluğu yoxlanılıb və uyğunsuzluq aşkar edilməyib. O, X.Axundovanın 2012-ci il sentyabrın 27-də vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnaməni almaq üçün idarəyə gəldiyini, vəsiqənin şəxsən ona təqdim edildiyini, proses zamanı heç bir qanunsuzluğa yol verilmədiyini bildirib.

Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin Opertiv nəzarət idarəsinin 2-ci şöbəsinin böyük dövlət vergi müfəttişi Araz Mərdanov isə izahatında göstərib ki, iyun ayının 14-də obyektin uçota alınması ilə bağlı tərtib edilmiş ərizə və akt özünü Xəyalə Axundova kimi təqdim etmiş şəxs tərəfindən imzalanıb. Eyni zamanda, iyulun 21-də obyektdə nəzarət-kassa aparatının plomblanmasına dair akt eyni qayda ilə imzalanıb. Araz Mərdanov obyektin və nəzarət-kassa aparatının qeydiyyatı ilə bağlı sənədlərin imzalanması zamanı diqqətsizlik edərək X.Axundovanın sənədlərinə uyğun olaraq şəxsiyyətini müəyyənləşdirmədiyini etiraf edib. O, həmçinin, iş həcminin çox olması və Binyat adlı şəxsə inanması səbəbindən nöqsana yol verdiyini, obyektin X.Axundovanın adına uçota alındığını bildirib.

Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin Operativ nəzarət şöbəsinin 2-ci şöbəsinin dövlət vergi müfəttişi Natiq Miriyev izahatında obyektin və nəzarət-kassa aparatının X.Axundovanın adına uçota alınması prosesində iştirak etmədiyini bildirib. Nəzarət-kassa aparatının quraşdırılması ilə məşğul olan «Orion Servis» MMC-də texniki nəzarətçi vəzifəsində işləyən Mirhəbib Ağalarov isə X.Axundovanın adına olan obyektdə nəzarət-kassa aparatının quraşdırılması ilə bağlı tərtib etdiyi müqavilənin B.Binyatov tərəfindən imzalandığını qeyd edib.

***Nöqsan təsdiqini tapıb***

Araşdırmalar zamanı X.Axundovanın vergi orqanında uçota alınması ilə bağlı vergi orqanı əməkdaşları - Natiq Miriyev və Araz Mərdanovun nöqsanlara yol verdiyi təsdiqini tapıb. Belə ki, N.Miriyev vətəndaş B.Binyatovun təqdim etdiyi şəxsiyyət vəsiqəsinin rekvizitlərindən istifadə edərək, X.Axundovanı özünün razılığı və iştirakı olmadan vergi orqanında fiziki şəxs kimi uçota alıb. Digər vergi əməkdaşı A.Mərdanov isə ticarət obyektinin və nəzarət-kassa aparatının X.Axundovanın adına vergi orqanında uçota alınması ilə bağlı tərtib edilmiş sənədlərin şəxsiyyətini müəyyənləşdirmədiyi şəxs tərəfindən imzalanmasına yol verib. Bununla da hər iki əməkdaş xidməti vəzifələrinin icrası zamanı Vergi Məcəlləsinin 31-ci maddəsinin, «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin» 34-cü maddəsinin, «Vergi işçisinin etik davranış kodeksi»nin 2.4-cü bəndinin tələblərini pozublar.

Bu da məlum olub ki, Natiq Miriyev və Araz Mərdanov tərəfindən Xəzər rayonu Türkan qəsəbəsi ərazisində qanunsuz fəaliyyət göstərən obyektlərin uçota alınması istiqamətində müvafiq tədbirlər görülmədiyindən Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin 5 oktyabr 2012-ci il tarixli əmri ilə barələrində «töhmət» intizam tənbehi tədbiri görülüb.

S.MUSTAFAYEV